**BEŞİNCİ ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 114

*Milli Məclisin iclas salonu.
3 dekabr 2019-cu il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 107 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
| İştirak edir | 101 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşdur:**

**Zaur Əliyev**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).
2. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan

Respublikasının 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli qanunlarının ləğv edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

3. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

7. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

8. Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq haqqında Azərbaycan Respublikası

qanununun layihəsi barədə.

9. Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Doqquzuncu Əlavə Protokola qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

10. Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə Birinci Əlavə Protokola qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

11. "Poçt ödəniş xidmətləri haqqında" Sazişə və onun Yekun Protokoluna qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. "2 oktyabr 2009-cu il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

13. "Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqları haqqında" və "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

14. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

15. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**1. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əhliman Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**2. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə"**

**Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli qanunlarının ləğv edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Aqiyə Naxçıvanlı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Rafael Hüseynov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**7. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Fərəc Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**8. Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**9. Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Doqquzuncu Əlavə Protokola qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**10. Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə Birinci Əlavə Protokola qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**11. "Poçt ödəniş xidmətləri haqqında" Sazişə və onun Yekun Protokoluna qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**12. "2 oktyabr 2009-cu il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı**

**vizasız gediş-gəlişi haqqında Sazişə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Səməd Seyidov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**13. "Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqları haqqında" və "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**14. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda də-**

**yişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Valeh Ələsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Fərəc Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*3 dekabr 2019-cu il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən**. Xoş gördük, hörmətli millət vəkilləri! Xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
|---|---|
| İştirak edir | 101 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasımıza başlaya bilərik.

Gündəlikdə 15 məsələ var, gündəlik sizlərə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq edildi.

Gündəlikdə əsas məsələlər üçüncü oxunuşda olan layihələr və beynəlxalq sazişlərdir. Yəqin birinci yarımhissədə iclasımızı başa çatdıra bilərik.

Gündəliyin birinci məsələsi. “Tibbi sığorta haqqında” Qanunda dəyişiklik edilməsi barədə. Üçüncü oxunuşdur. Buyurun, Əhliman Əmiraslanov.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisin noyabrın 29-da keçirilən plenar iclasında ikinci oxunuşda müzakirə edilərək qəbul olunmuşdur. Üçüncü oxunuşa təqdim olunan qanun layihəsinə iki dəyişiklik təklif edilir. Onlardan biri qanun layihəsinin icbari tibbi sığorta üzrə sığorta haqları barədə 15-ci maddəsinə təklif olunan dəyişiklikdir. Bu dəyişiklik sığorta faizlərində olan dəyişiklikdir və yeni redaksiyada təklif olunur.

Digər dəyişiklik isə Qanunun “Keçid müddəaları” adlı 16-4-cü maddəsinə təklif olunur. 16.4.1-ci maddə “icbari tibbi sığorta ölkənin inzibati ərazi vahidləri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş ardıcıllıq nəzərə alınmaqla, 2020-ci ildə tamamlamaq şərti ilə mərhələli şəkildə tətbiq olunur” kimi verilir. 16-4.3-cü maddə “bu Qanunun 15-10.1.2-ci maddəsində nəzərdə tutulan əmək haqlarının 8000 manatadək hissəsindən ödənilən sığorta haqqının məbləğinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə 2021-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir” kimi dəyiş-

dirilir. Bu Qanun 15-10.1.2-ci maddəsindən 15-10.1.6-cı maddələrinədək 2020-ci il aprelin 1-dən, 15-10.5-ci maddəsi 2023-cü ilin yanvar ayının 1-dən, 16-4.4-cü və 16-4.5-ci maddələri istisna olmaqla, digər maddələri 2020-ci il yanvarın 1-dən qüvvəyə minir. Dəyişikliklər qanun layihəsinin subyektləri ilə razılaşdırılmışdır. Hörmətli millət vəkillərinin üçüncü oxunuşda da qanun layihəsini dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən**. Müzakirə olunub. İkinci oxunuşda da suallar olmadı. Xahiş edirəm, üçüncü oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin ikinci məsələsi "İcbari sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Artıq "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik qəbul edildi. Həmin ləğv edilən Qanun da qəbul edilən qanun layihəsi ilə bilavasitə əlaqədardır. Ona görə millət vəkillərindən xahiş edirəm ki, qanun layihəsinə səs versinlər.

**Sədrlik edən**. Əgər başqa təklif yoxdursa, qanun

layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin üçüncü məsələsi. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında. Bu da üçüncü oxunuşdur. Buyursun Aqiyə Naxçıvanlı.

**A.Naxçıvanlı,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun, Oqtay müəllim. Hörmətli millət vəkilləri, qanun layihəsinə təklif olunan dəyişiklik övladlığa götürmə mexanizminin təkmilləşdirilməsi məqsədi ilə hazırlanıb, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğunlaşdırma məqsədi daşıyır. Üçüncü oxunuşdur. Xahiş edirəm, səs verəsiniz. Sağ olun.

**Sədrlik edən**. Xahiş edirəm, üçüncü oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin dördüncü məsələsi Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədədir. Bu da üçüncü oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, həm dördüncü, həm də beşinci məsələlər hörmətli Aqiyə xanımın məruzə etdiyi və artıq üçüncü oxunuşda səsə qoyulmuş Ailə Məcəlləsindən irəli gəlir. Belə ki, övladlığa götürmə ilə bağlı prosedur məsələlər məhkəmə qaydasında həllini tapır. Yəni son qərar məhkəmənindir və məhz bu məsələlərin həlli məqsədi ilə həm dördüncü məsələ, Mülki Prosessual Məcəllədə, həm də beşinci məsələ, Mülki Məcəllədə dəyişiklik, daha doğrusu, Ailə Məcəlləsinin normasından irəli gələn prosessual məsələlər həllini tapmış olur. Hər hansı bir əlavə təkliflər daxil olmamışdır. Dördüncü və beşinci məsələlərin üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən**. Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin dördüncü məsələsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin beşinci məsələsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin altıncı məsələsi. "Diaspor fəaliyyətində xidmətə görə" medalın təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, diaspor fəaliyyətinə ölkəmizdə çox böyük əhəmiyyət verilir. Hələ ulu öndər Heydər Əliyevin dövründən bütün xarici səfərlərdə Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızla görüşlər keçirilib, onlara həmişə diqqət göstərilib. Bilirsiniz ki, bu illər ərzində diaspor fəaliyyətində aktiv olmuş soydaşlarımız da Azərbaycanın digər orden və medalları ilə təltif olunublar. Məhz bu baxımdan, xüsusi bir medalın, "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis olunması çox əhəmiyyətli bir addım idi. Həm birinci, həm də ikinci oxunuşda həmkarlar bu məsələni dəstəkləyiblər.

Burada Rafael müəllim Hüseynov tərəfindən dil-üslub baxımından bir təklif olmuşdu. Biz işgüzar qaydada

müzakirələr aparmışıq. Hazırda üçüncü oxunuşla bağlı, düşünürəm ki, başqa bir problem yoxdur. Səsə qoyulmasını xahiş edirəm. Bu qanunun qəbulu ilə bizim orden və medalların siyahısına növbəti çox şərəfli bir medal töhfəsi vermiş olacağıq. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Rafael Hüseynov.

**R.Hüseynov**. Sağ olun. Hörmətli millət vəkilləri, komitə sədri Əli Hüseynli tamam haqlıdır. Müasir Azərbaycanın diaspor quruculuğu unudulmaz ulu öndər Heydər Əliyevin Azərbaycana yadigar qalan vacib əsərlərindəndir. Çox sağlam təməllər üzərində qurulduğundan Azərbaycan diaspor quruculuğunun sabahı da, əlbəttə ki, çox böyük uğurlar vəd edir və "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə bağlı qanun layihəsini son, üçüncü oxunuşda nəzərdən keçiririk və mən belə bir gərəkli təltiflə bağlı qanunun məhz fəaliyyəti başa çatmaqda olan V çağırış Milli Məclisdə qəbul edilməsini məmnunluq hissi ilə qeyd edirəm.

Diaspor ilə sistemli iş millət və dövlət quruculuğunun xüsusi əhəmiyyət kəsb edən sahələrindəndir. Xüsusən də bizim kimi nadir tarixli bir millət üçün ki, dünya boyu səpələnmiş soydaşlarımızın sayı respublika ərazisində ömür sürənlərdən bir neçə dəfə çoxdur. Başqa dünya xalqları bu yolda ciddi səylər qoymağa 100 il və daha əvvəl başlasalar da, bu, bizim üçün yeni bir sahədir və biz daha qısa zaman içərisində daha çox işlər görməliyik. Ona görə də mən istər bu medalın təsis edilməsini, istərsə də Diaspor ilə iş üzrə Dövlət Komitəsinin son dövrdəki fəaliyyətlərini çox yüksək qiymətləndirirəm. Çünki bu fəaliyyət ilk növbədə məhz dünya boyu təşkilatlanmanın daha sistemli aparılmasına səmtlənib.

Təsəvvür edin ki, yalnız son bir ildə komitə xaricdə

yaşayan 11 mindən artıq yeni soydaş ünvanı ilə əlaqə imkanları qurub, ayrıca internet radio və televiziyasını yaradıb. Xarici ölkələrdəki görüşlər sistemli xarakter alıb və illərdən bəri qalan problemlərin ağıllı həlli təmin edilib. Həmin fəaliyyətin ən mühüm bəndi isə gəlməkdə olan bir qanundur və əslində, çıxış eləməkdə əsas məqsədlərdən biri də bu anonsu verməkdir ki, xaricdəki həmvətənlərimiz də bunu çoxdan gözləməkdədirlər. Bildiyim dərəcədə, bizim qanunlar şəbəkəsində son dərəcə zəruri olan boş yeri görünən, yalnız ölkəmizdə deyil, xaricdəki həmvətənlərimiz tərəfindən də çoxdan arzulanan vacib bir qanun layihəsi hazırlanmaqdadır. Yəqin ki, yaxın aylar içərisində formalaşacaq və fəaliyyətə başlayacaq yeni Milli Məclisin təsdiq etdiyi ilk qanunlardan biri də o olacaqdır. Həmin qanun xaricdə yaşayan soydaşlar və diaspor təşkilatları haqqındadır.

Niyə deyirəm ki, dünyanın ən müxtəlif ölkələrindəki həmvətənlərimiz, diaspor təmsilçiləri belə bir qanunu çoxdan gözləməkdədirlər. Çünki həmin yeni qanun bir sıra başqa məziyyətlərindən savayı "soydaş" anlayışının statusunu da müəyyənləşdirir və onlara vəsiqə verməyi də nəzərdə tutur ki, bu da onların bir çox mövcud problemlərinin həllinə müsbət təsirini, əlbəttə ki, göstərəcəkdir. İndi müzakirə etdiyimiz məsələ, "Diaspor fəaliyyətində xidmətlərə görə" medalı isə xaricdə yaşayan həmvətənlərimizi Azərbaycan dövlətinin və millətinin daha böyük yüksəlişlərinə, təbii ki, töhfələrini verməyə cəlb edəcək, səfərbər edəcək. Odur ki, mən onu ürəkdən təqdir edirəm.

**Sədrlik edən**. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, altıncı məsələyə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin yeddinci məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqındadır. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Qanun layihəsi Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gömrük münasibətlərinin təkmilləşdirilməsinə yönəldilmişdir. Kifayət qədər sadə, lakin məzmunlu bir qanun layihəsidir. Anlaşma Memorandumu sadələşdirilmiş gömrük dəhlizinin yaradılması ilə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında ticarətin təhlükəsizliyini təmin etmək məqsədi ilə tərəflərin dövlətlər arasında keçirilən mallar və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin səmərəliliyinin artırılmasını nəzərdə tutur. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən**. Sağ olun. Fərəc Quliyev.

**F.Quliyev**. Təşəkkür edirəm, cənab Sədr. Hörmətli həmkarlar, biz mütəmadi olaraq Türkiyə–Azərbaycan münasibətləri ilə bağlı sənədləri qəbul eləyəndə o inkişafı görürük ki, hər gün Azərbaycanla Türkiyə arasındakı

münasibətlər daha da dərinləşir və cənab Prezidentin Türkiyədə son çıxışında da bu məqamlar öz aydınlığını göstərdi. Perspektivdə də bu cür ünsiyyətin, bu cür inteqrasiyanın dərinləşəcəyinə açıq şəkildə işarə olundu. Taleyimizin, uğurlarımızın eyni olduğu bildirildi. Türkiyənin güclənməsinin məhz bizim güclənməyimiz olduğunu bildirən o çıxış salonda alqışlarla qarşılandı.

Hesab edirəm, biz həmişə dediyimiz o məsələyə bir də qayıtmalıyıq ki, Azərbaycanla Türkiyə arasındakı münasibətlər iqtisadi-siyasi müstəvidən daha çox artıq siyasi-hərbi müstəviyə də keçməkdə davam eləməlidir, dərinləşməlidir.

Mən bir məsələni nəzərə çatdırmaq istəyirəm. Xüsusən lojistik imkanların artdığı bir zamanda Azərbaycanın karbohidrogen ehtiyatlarının xaricə göndərilməsindəki yolda Türkiyə–Azərbaycanın birlikdə inkişaf elətdirdiyi yolların mütəmadi olaraq müqavilələr bağlanan anda Ermənistan və bizim inkişafımızı istəməyən dövlətlər tərəfindən təhdid olunması özündə onu ehtiva edir ki, Türkiyə–Azərbaycan arasında ortaq ordu yaratmağın zamanıdır. Bəlkə ehtiyac olarsa, bu xətlərin, kommunikasiya sistemlərinin qorunması, bu bölgənin təhdid olunub təhlükəsiz zona olmasını işarə eləməklə Azərbaycanın iqtisadi inkişafına mane olan dövlətlərə cavab vermək üçün bir başqa dövlətin də bu layihələrdə iştirakını təmin etmək üçün bəlkə belə bir orduya ehtiyac var. Bəlkə günün birində Barış əməliyyatında olduğu kimi, – mən Türkiyədəki “Barış çeşməsi” əməliyyatını nəzərdə tuturam, – sərhəd bölgəsindən bir neçə, on kilometrlərlə içəridə bu xətlərə zərər verənlərə təhlükəsizlik zolağı yaratmaq lazım olacaq. Mən təmas xəttini nəzərdə tutmuram, sərhəd xəttini nəzərdə tuturam.

Ona görə hesab edirəm ki, müvafiq strukturlar bu məsələni müzakirə eləsələr və baza hazırlasalar, hər bir istiqamətdə bu məsələnin müzakirə olunması işin xeyrinə olar. Bütövlükdə isə, mən bu davranışlara və bu gün təsdiq elədiyimiz sənədə uğur arzulayıram və hesab edirəm ki, bu, çox normal bir gedişatdır. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Xahiş edirəm, gündəliyin yeddinci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti dörd məsələ bir paketdə gəlib. Bu, Ümumdünya Poçt Konvensiyasına aid məsələlərdir. Səkkizinci məsələ. "Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq haqqında" qanun layihəsi. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Siz haqlı olaraq qeyd etdiniz ki, səkkiz, doqquz, onuncu və on birinci məsələlər bir paketdə daxil olmuşdur və dəyişikliklərin, hamısı da redaktə xarakteri daşıyır. Ona görə, xahiş edirəm ki, məsləhət olsa, mən hamısı haqqında məlumat verərdim, səsvermə ayrılıqda keçirilərdi.

Adları qeyd olunan konvensiya, saziş və protokollar Ümumdünya Poçt İttifaqının dövri olaraq keçirilən konqresində yeni redaktə ilə yenidən qəbul edilmişdir. Redaktə

zamanı edilmiş dəyişikliklər prinsipial xarakter daşımır, təsdiqlənmək üçün Milli Məclisə təqdim olunmuş mətndə nəzərəçarpacaq qara hərflərlə verilmişdir. Edilmiş dəyişikliklər əvvəlki mətnlə birlikdə, daha dəqiq desək, mətnin tərkibində təqdim olunduğundan onların müvafiq qanunla təsdiq edilməsi qanunvericilikdə nəzərdə tutulmuş hüquqi zərurətdən irəli gəlir. Bu səbəbdən həmin konvensiyalar təsdiq olunmaq üçün Milli Məclisin müzakirəsinə təqdim olunur. Ümumdünya Poçt Konvensiyası və onun Yekun Protokoluna dair Azərbaycan Respublikasının Bəyanatı da təqdim olunan sənədlərin siyahısına əlavə olunmuşdur. Ona görə də, millət vəkillərindən bu qanun layihələrinə ayrı-ayrılıqda səs verməlsərini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Gündəliyin səkkizinci məsələsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 9-cu məsələsinə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 10-cu məsələsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 11-ci məsələsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 12-ci məsələsi. "2 oktyabr 2009-cu il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gedib-gəlişi haqqında Sazişə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiq edilməsidir. Buyursun Səməd Seyidov.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Sağ olun, Oqtay müəllim. Siz artıq təqdim edilən layihəni qeyd etdiniz. Doğrudan da, 2009-cu il 2 oktyabrda Qazaxıstan–Azərbaycan münasibətlərinə dair belə bir Saziş imzalanıb. Bu, çox vacib bir Sazişdir. Vətəndaşların vizasız gediş-gəlişlərini təmin edən həmin sazişə 2009-cu il oktyabrın 14-də əlavələr, dəyişikliklər edilib. Bir məqsədə, həmin Sazişin təkmilləşdirilməsi və Azərbaycan–Qazaxıstan münasibətlərinin daha da yüksək səviyyəyə qaldırılması ilə bağlı.

Nədir, əsas mahiyyət nədən ibarətdir? 2009-cu ildə bağlanmış Saziş əsasında vətəndaşlarımız həm Qazaxıstandan Azərbaycana, həm də Azərbaycandan Qazaxıstana 30 gün müddətində gedə bilərdi. İndi isə münasibətlərimiz çox yüksək səviyyədə təşkil olunub, inkişaf edib, Azərbaycan–Qazaxıstan münasibətləri strateji əhəmiyyət daşıyan münasibətlərdir. Ona görə də 30 gün deyil, 90 gün müddətində həm Qazaxıstan vətəndaşları, həm də Azərbaycan vətəndaşları qarşılıqlı vizasız səfərləri həyata keçirə bilərlər. Ona görə, təbii, belə bir Sazişin imzalanması və parlamentə göndərilməsi müsbət bir haldır. Komitəmiz buna müsbət rəy verib və mən həmkarlarımdan buna müsbət fikir söyləmələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 12-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 13-cü məsələsi. "Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqları haqqında" və "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə. Buyursun Ziyafət Əsgərov.

**Z.Əsgərov,** *Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Qanun layihələrinin birinci və ikinci oxunuşunda deputatlarımız yekdilliklə bu layihələri bəyəniblər və əlavə bir təklif olmayıb. Ona görə, xahiş edirəm, müsbət münasibət bildirəsiniz.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 13-cü məsələsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 14-cü məsələsi. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Valeh Ələsgərov.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm. Cənab Sədr, hörmətli Milli Məclisin deputatları. Üçüncü oxunuşda sizə təqdim edilmiş qanun layihəsinə ikinci oxunuşdan sonra hər hansı bir əlavə dəyişiklik təqdim edilməmişdir, irad bildirilməmişdir. Ona görə də təklif edirəm, səs verib, qəbul edək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, üçüncü oxunuşda gündəliyin 14-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin sonuncu, 15-ci məsələsi. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Məşğulluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Minnətdaram, Oqtay müəllim. Hər iki qanuna edilən dəyişiklik parlamentdə iki oxunuşda müzakirə olunub. Heç bir əlavə dəyişiklik, fikir səsləndirilməyib. Bu, demək, Əmək Məcəlləsinin 9-cu maddəsində, bir də "Məşğulluq haqqında" Qanunun 31-ci maddəsində edilən dəyişiklikdir. Hər iki dəyişiklikdə bir məqsəd var, o da

elektron hökumət elementlərinin bizim hüquqi bazada təsbit olunmasıdır. Deputat həmkarlarımdan xahiş edirəm ki, bu layihələrə səs versinlər. Sağ olun.

**Sədrlik edən**. Fərəc Quliyev.

**F.Quliyev**. Təşəkkür edirəm, cənab Sədr. Mən bu qanun layihəsinə, təbii ki, səs verəcəyəm. Son zamanlar bir çox nazirliklərin, o cümlədən əhalinin sosial müdafiəsini təşkil edən bu nazirliyin də uğurlarını qeyd eləməklə yanaşı, dəyişikliklər də, xüsusən elektron hökumətin imkanlarından yaxşı istifadə olunması və yeni sistemin yaradılması ilə bağlı olaraq təkliflər vardı. Mən təklif edirəm ki, bu islahatçı hökumət kasıb ailələrlə bağlı olan növbəti bir addımın atılması üçün mənim təklifimi nəzərə alsınlar. Bu, ondan ibarətdir ki, Azərbaycanda elə ailələr var, heç bir üzvü heç bir işlə məşğul olmur. Məşğulluqla bağlı olduğu üçün mən bu məsələyə toxunuram. Bu ailələr az da, çox da ola bilər. Söhbət ondan gedir ki, belə ailələrin bələdiyyələr vasitəsi ilə qeydiyyata alınması, bir bank, informasiya bankı yaratmaq mümkündür. Vakant yerlər olanda, iş yerləri, yeni müəssisələr açılanda ilk olaraq bu ailələrin üzvlərini işlə təmin etmək üçün həmin banka müraciət etmək olar ki, ən azından bir nəfər həmin ailələrdə işlə təmin olunsun. Belə bir bankın yaradılmasını təklif edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 15-ci məsələsinə üçüncü oxunuşda müraciət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Bugünkü iclas sona çatdı. Sağ olun.